AZƏRBAYCAN RESPUBLİKASI İSMAYILLI RAYON İCRA HAKİMİYYƏTİ

Az 3100 İsmayıllı şəhəri, Heydər Əliyev pr.51 Tel.: (02028) 2-55-97 Faks: 2-12-47 Elektron poçt: mail@ismayilli-ih.gov.az

2 noyabr 2026-cı il **5-54/2-1171/2026**

«İvanovka 2050 — iqlimə davamlı kənd təsərrüfatı üçün canlı laboratoriya» layihəsinin rəhbəri Ceyla Əhmədzadəyə və iştirakçıları Nicat Şıxəliyevə, Mikayıl Əhmədbəyliyə, Fərəh Hacıya, Məmməd Nəsibliyə, Camal Nağızadəyə, Kamran Məhərrəmova, Fərəh Əhmədovaya, Zəhra Nəsibliyə, Aydan Nuriyevaya

Əziz şagirdlər və gənc tədqiqatçılar,

«Ivanovka 2050 — iqlimə davamlı kənd təsərrüfatı üçün canlı laboratoriya» layihəsi çərçivəsində həyata keçirdiyiniz səmərəli fəaliyyət, nümayiş etdirdiyiniz təşəbbüskarlıq və əzmkarlıq yüksək qiymətə layiqdir.

Bakının müxtəlif təhsil müəssisələrini təmsil edən gənclərin bir araya gələrək həyata keçirdiyiniz bu təşəbbüs ekologiya, bərpa olunan enerji və dayanıqlı kənd təsərrüfatı kimi mühüm istiqamətləri özündə birləşdirir. Layihənin əsas məqsədi İsmayıllı rayonunun Ivanovka kəndini gələcəyin iqlimə davamlı və innovativ kənd təsərrüratı modelinə çevirməkdir. 1840-cı ildə salınmış İvanovka kəndi və burada fəaliyyət göstərmiş N.Nikitin adına kollektiv təsərrüfat rayonumuzun zəngin aqrar ənənələrə və böyük təsərrüfat təcrübəsinə malik yaşayış məntəqələrindən biri olmuşdur. Hazırda yaradılmış “İvanovka Aqropark” ASC bu ənənələri uğurla davam etdirməkdədir. Bu baxımdan layihənin qarşıya qoyduğu məqsədləri rayonun aqrar inkişaf prioritetləri ilə tam uzlaşır.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikası İsmayıllı Rayon İcra Hakimiyyəti
İmzalayan şəxs: Nahid Bağırov / Rəhbərlik / İcra başçısı

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify2.sesda.az/info/esign/YRVLGVV5nMa7eoRzKH0UmvFrkXUXs8TjlW71qjOXGV0%3D

Layihə çərçivəsində iştirakçılar aşağıdakı istiqamətlərdə fəaliyyət göstərmişlər:

— Ekoloji baza tədqiqatı: altı müxtəlif torpaq istifadəsi nöqtəsindən 247 torpaq nümunəsinin toplanması, onlardan 137-sinin turşuluq, nəmlik, rəng və struktur göstəriciləri üzrə təhlili, İvan-gölü su anbarının və bitki örtüyünün qiymətləndirilməsi;

— Karbon xəritələşdirilməsi: açıq mənbəli məlumatlar əsasında kənd üzrə emissiya mənbələrinin müəyyənləşdirilməsi;

— Ağıllı su və süd təsərrüfatı: suvarmada itkilərin azaldılması və heyvandarlıqda metan emissiyasının azaldılması üçün sistemlərin layihələndirilməsi;

— Bərpa olunan enerji: günəş enerjisi və heyvandarlıq tullantılarından bioqaz istehsalı imkanlarının texniki-iqtisadi qiymətləndirilməsi;

— Biomüxtəliflik və açıq məlumat: biomüxtəlifliyin bərpası üçün göstəricilər sisteminin hazırlanması və bütün nəticələrin ivanovka2050.com saytında ictimaiyyət üçün açıq dərc edilməsi.

Həyata keçirdiyiniz bu işlər yalnız elmi bilik və bacarıqlarınızın inkişafına deyil, eyni zamanda, praktiki təcrübə qazanmağınıza, komanda şəklində işləmək və sosial məsuliyyət daşımaq vərdişlərinizin formalaşmasına da mühüm töhfə verir. İrəli sürdüyünüz təşəbbüs gənc nəslin elmi potensialının, yaradıcı düşüncəsinin və ölkəmizin gələcəyinə olan məsuliyyətli münasibətinin bariz nümunəsidir.

İsmayıllı Rayon İcra Hakimiyyəti olaraq bu dəyərli təşəbbüsü dəstəkləyir, layihənin həm İvanovka kəndinin inkişafına, həm də ölkəmizdə kənd təsərrüfatının müasir və dayanıqlı prinsiplər əsasında inkişafına töhfə verəcəyinə inanırıq.

Gənc yaşlarınızda nümayiş etdirdiyiniz yüksək elmi maraq, məsuliyyət və komanda ruhu, şübhəsiz ki, həmyaşıdlarınız üçün də müsbət örnəkdir. İnanırıq ki, qazandığınız təcrübə gələcək fəaliyyətinizdə yeni uğurlara yol açacaq, elmi axtarışlarınız və innovativ təşəbbüsləriniz davamlı xarakter daşıyacaqdır.

Hər birinizə təhsilinizdə, elmi fəaliyyətinizdə və gələcək təşəbbüslərinizdə uğurlar arzulayır, İsmayıllı rayonunun inkişafına yönəlmiş bu dəyərli layihəyə verdiyiniz töhfəyə görə təşəkkürümüzü bildiririk.

Hörmətlə,

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı: Nahid Bağırov

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikası İsmayıllı Rayon İcra Hakimiyyəti
İmzalayan şəxs: Nahid Bağırov / Rəhbərlik / İcra başçısı

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify2.sesda.az/info/esign/YRVLGVV5nMa7eoRzKH0UmvFrkXUXs8TjlW71qjOXGV0%3D